1. 2011-2012-ci dərs ili üçün Azərbaycan Respublikasının təlim Azərbaycan, rus, gürcü dillərində olan ümumtəhsil məktəblərinin, ləzgi dili öyrədilən ümumtəhsil məktəblərinin V-XI siniflərinin tədris planları (əlavə 1-5) və tədris planlarına dair qeydlər (əlavə 6) təsdiq edilsin.

2. Aparatın rəhbəri İ.Pirməmmədov, Kənd rayonları üzrə ümumi təhsil şöbəsi (A.Əhmədov), İqtisadiyyat şöbəsi (Ş.Əliyev), Dərslik və nəşriyyat şöbəsi (F.Şahbazlı) tədris planlarının çap olunub vaxtında yerlərə çatdırılmasını təmin etsinlər.

3. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) əmrin əlavələrlə birlikdə "Azərbaycan müəllimi" qəzetində və "Təhsil xəbərləri" məcmuəsində dərc olunmasını təmin etsin.

4. Əmrin icrasına nəzarət nazir müavini İ.İsgəndərova həvalə olunsun.

Misir MƏRDANOV,
Azərbaycan Respublikasının təhsil naziri
4 iyul 2011-ci il

Əlavə:

1. Ümumtəhsil məktəblərinin 2011-2012-ci dərs ili üçün tədris planı (təlim Azərbaycan dilində)

2. Ümumtəhsil məktəblərinin 2011-2012-ci dərs ili üçün tədris planı (təlim rus dilində)

3. Ümumtəhsil məktəblərinin 2011-2012-ci dərs ili üçün tədris planı (təlim gürcü dilində)

4. Ləzgi dili öyrədilən ümumtəhsil məktəblərinin 2011-2012-ci dərs ili üçün tədris planı (təlim Azərbaycan dilində)

5. Ləzgi dili öyrədilən ümumtəhsil məktəblərinin 2011-2012-ci dərs ili üçün tədris planı (təlim rus dilində)

6. 2011-2012-ci dərs ili üçün tədris planlarına dair qeydlər